# Müxalif siyasətçinin ölkədən çıxışına qadağa qoyulub

Azərbaycandakı Siyasi Menecment İnstitutunun rəhbəri, müstəqil siyasətçi Azər Qasımlının ölkədən çıxışına qadağan edilib. Belə ki, Azər Qasımlıya noyabrın 22-də Bakı Beynəlxalq Aeroportunda bildirilib ki, ölkədən çıxışına **qadağa qoyulub.**[1]

O, noyabrın 22-də Çexiyanın paytaxtı Praqaya, oradan da Berlinə səfər etməyi planlaşdırırmış. Bakı Beynəlxalq Aereportunun pasport nəzarətində ona deyiblər ki, Daxili İşlər Nazirliyi onun ölkədən çıxışıma qadağa qoyub.

"Hesab edirəm ki, bu qadağa siyasi qərardır və hakimiyyətin siyasətini tənqid etdiyimə görə mənə qarşı təzyiqdir. Bu qadağa qeyri-qanunidir və yalnız şərləmə əsasında qoyula bilər", o yerli mediaya bildirib.

Noyabrın 25-də Azər Qasımlı Bakı şəhər Baş Polis İdarəsinə çağırılıb və orada şahid qismində dindirilib. O, üç saat yarımdan sonra sərbəst buraxılıb.

Azər Qasımlı bir cinayət işi üzrə şahid qismində dindirildiyini bildirib və yazılı iltizam verdiyinə görə hansı cinayət işindən söhbət getdiyini deməyib.

O, istintaqda rəhbərlik etdiyi Siyasi Menecment İnstitutunun fəaliyyəti barədə də xeyli suallar verildiyini deyib.

Daxili İşlər Nazirliyi Azər Qasımlının ölkədən xaricə buraxılmamasının səbəbləri ilə bağlı hələ açıqlama verməyib.

Azər Qasımlı əvvəllər də belə məhdudiyyətlə üzləşib. 29 sentyabr 2016-cı ildə konfransda iştirak etmək məqsədilə Böyük Kəsik sərhəd postundan Gürcüstana getmək istəyərkən sərhədçilər ona Baş Prokurorluq tərəfindən ölkədən **çıxışına qadağa qoyulduğunu bildiriblər.**[2]

A. Qasımlı 29 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq idarəsinə müraciət edərək ölkədən çıxışına qadağa qoyulması üçün heç bir hüquqi əsasın olmadığını və bu qadağanın təxirəsalınmadan götürülməsini tələb etsə də, ölkədən çıxışına məhdudiyyət götürülməyib.

O, 7 mart 2017-ci ildə qeyd olunan məsələ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edib. Məhkəmə 13 dekabr 2018-ci ildə şikayəti təmin edib. Azərbaycan hökuməti bu qərardan şikayət verməyib və 13 mart 2019-cu ildə Avropa məhkəməsinin qərarı qüvvəyə minib. 2019-cu ildə Azər Qasımlının ölkədən çıxışına qoyulan qadağa götürülüb.

---

[1] https://turan.az/en/politics/azer-gasymly-summoned-to-capitals-police-station-787411

[2] https://abzas.org/en/2019/6/az%C9%99r-qasimlinin-sikay%C9%99ti-uzr%C9%99-m%C9%99hk%C9%99m%C9%99-novb%C9%99ti-d%C9%99f%C9%99-t%C9%99xir%C9%99-salindi/

## Siyasi məhbusların həbs müddəti əsassız olaraq artırırlıb

### Anar Məmmədlinin həbs müddəti uzadılıb

Noyabrın 20-də Bakı şəhər Xətai Rayon Məhkəməsi Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri, siyasi məhbus Anar Məmmədlinin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətini daha **üç ay uzadıb.** [3]

Məhkəmə həbs müddətini Bakı şəhər Prokurorluğu tərəfindən verilən təqdimat əsasında uzadıb. Noyabrın 26-da məhkəmənin qərarından apelyasiya şikayəti verilsə də, **şikayət təmin edilməyib.** [4]

Həmçinin müdafiə tərəfinin Anar Məmmədlinin barəsində ev dustaqlığı seçilməsi ilə bağlı vəsatəti də təmin etməyib.

COP 29 tədbiri ilə bağlı Azərbaycanda səfərdə olan Amnesty İnternationalın təmsilçis Ane Tusvik Bonde və digər xarici və yerli hüquq müdafiəçiləri, ABŞ, Fansa, Almaniya səfirliklərinin nümayəndələri məhkəmə binasına buraxılmayıb. “Bu qanunsuzdur, çünki onların digər şəxlər kimi açıq keçirilən proseslərdə iştirak etmək hüququ var”, deyə, Anar Məmmədlinin vəkili Cavad Cavadov bildirib. Vəkil qeyd edib ki, məhkəmədə iştirak edən Anar Məmmədli həbs müddətinin uzadılmasını əsassız sayıb və həbsini siyasi sifariş hesab etdiyini bildirib.

Vəkil hüquq müdafiəçinin səhhətində ciddi geriləmələrin olduğunu və adekvat olaraq müalicə olunmasının vacib olduğunu deyib.

“Biz onun mulki klinikada müayinə olunması ilə bağlı Xətayi Rayon Məhkəməsinə müraciət etdik. Amma məhkəmə təmin etmədi”, o bildirib.

Anar Məmmədli bu il aprelin 29-da saxlanılıb. Aprelin 30-da ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Bir sıra beynəlxalq təşkilatlar, həmçinin ABŞ Dövlət Departamenti, ABŞ Səfirliyi Azərbaycan hökumətini Anar Məmmədli və digər haqsız həbs edilən şəxsləri dərhal azad etməyə çağırıb.

Anar Məmmədli Azərbaycanda seçki hüququ sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatının rəhbəridir. O, seçkilərlə bağlı tənqidi hesabatların müəllifidir.

Anar Məmmədli 2014- cü il sentyabrın 29-da Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) payız sessiyasında Vatslav Havel mükafatına layiq görülüb.

### İmran Əliyevin həbs müddəti uzadılıb

Noyabrın 18-də Xətai Rayon Məhkəməsində “Meclis.info” saytının rəhbəri İmran Əliyev barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti daha **3 ay uzadılıb.** [5]

---

[3] https://turan.az/en/politics/term-of-arrest-of-anar-mammadli-extended-for-another-3-months-787200

[4] https://turan.az/en/politics/court-keeps-anar-mammadli-in-custody-787482

[5] https://turan.az/en/politics/court-prolongs-imran-aliyevs-arrest-term-787130

İmran Əliyin özü və vəkili təqdimata etiraz edib, onun əsassız olduğunu bildiriblər, təmin olunmamasını istəyiblər. Saytın rəhbəri ictimai fəaliyyətinə görə siyasi sifarişlə həbs olunduğunu deyib. O, səhhətindəki problemləri də hakimin nəzərinə çatdırıb. Əliyev kəskin ağrılardan əziyyət çəkdiyini, ehtiyacı olduğu halda, lazımi tibbi yardımı ala bilmədiyini deyib. Onun sözlərinə görə, təxminən 15 kiloqram çəki itirib. İmran Əliyev məhkəmədə də halsız olub.

Məhkəmədə iştirak edən Bakı Şəhər Baş Polis İdarəsinin müstəntiqi isə təqdimatı müdafiə edib, İmran Əliyev haqqında həbs qətimkan tədbirinin uzadılmasını istəyib. Müstəntiq bildirib ki, istintaq davam edir və hələ bir çox istintaq hərəkətləri aparılmalıdır. Bu müddətdə İmran Əliyevin azadlıqda qalması məqsədəuyğun deyil. Müstəntiq bunu sayt rəhbərinin istintaqdan yayınması, şahidlərə təsir göstərmək ehtimalının olması ilə əsaslandırıb.

Hakim isə təqdimatı təmin edib və Əliyevin istintaq dövrü üçün həbsdə saxlanma müddətini fevralın 19-na qədər uzadıb. Məhkəmənin qərarından apelyasiya şikayəti verilsə də, şikayət təmin edilməyib.

İmran Əliyev aprelin 18-də Heydər Əliyev Beynəlxalq Hava Limanında saxlanılıb. O, Cinayət Məcəlləsinin 206.3.1-ci (qaçaqmalçılıq - təkrar törədildikdə) və 206.3.2-ci (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddələri ilə ittiham olunur. Jurnalist ittihamı qəbul etmir, sifariş hesab edir.

**Tədqiqatçının da həbs müddəti uzadılıb**

Noyabrın 4-də Səbail Rayon Məhkəməsində milli azlıq olan talış tarixinin tədqiqatçısı İqbal Əbilovun həbsinin ev dustaqlığı ilə əvəz olunması barədə verilən vəsatətə baxılıb və vəsatət **təmin edilməyib[6].**

Qərardan apelyasiya şikayəti verilsə də, təmin edilməyib.

Noyabrın 19-da Səbail Rayon Məhkəməsi İqbal Əbilovun həbs müddətinin daha 4 ay uzadılması ilə bağlı istintaqın **vəsatətini təmin edib.** [7]

Noyabrın 25-də Bakı Apelyasiya Məhkəməsi İqbal Əbilovun həbs müddətinin uzadılması ilə bağlı qərardan verilən apelyasiya şikayətinə baxıb və şikayəti təmin etməyib.

İqbal Əbilov iyulun 22-də saxlanılıb.[8] O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət), 281.3-cü (xarici təşkilatların və ya onların nümayəndələrinin göstərişi ilə dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri ilə ittiham olunur.

Dövlət Təhlükəsizliyi Xidməti tədqiqatçının həbsi ilə bağlı rəsmi məlumat yaymayıb. Lakin yerli saytlarda yer alan iddialara görə, Əbilov üçüncü ölkə ərazisində məskunlaşıb xarici xüsusi xidmət orqanının tapşırıqlarını icra etməklə dövlətə xəyanətdə, Azərbaycan ərazisində etnik zəmində nifrət və düşmənçiliyin salınmasına yönələn hərəkətlərdə təqsirləndirilir.

---

[6] https://turan.az/en/politics/the-court-refused-to-transfer-igbal-abilov-to-house-arrest-786545
[7] https://turan.az/en/politics/pretrial-detention-of-iqbal-abilov-extended-for-another-4-months-787161
[8] https://turan.az/en/politics/iqbal-abilov-talysh-activist-detained

Yaxınları hesab edir ki, İqbal Əbilov qondarma ittihamlarla saxlanılıb, onun təqib olunmasının səbəbi müxtəlif etnik azlıqlar, o cümlədən Azərbaycanda yaşayan talışlarla bağlı araşdırmalar aparmasıdır.

35 yaşlı Əbilov 2010-cu ildə Riqada qeydiyyatdan keçmiş talış tədqiqatçıları qrupu "Talış Milli Akademiyası"nın təsisçilərindən biridir. Talış Milli Akademiyasının məqsədi talış dilini sosial-iqtisadi, tarixi, etnoqrafik, arxeoloji, ədəbi və linqvistik baxımdan öyrənmək və tədqiq etməkdir. İqbal Əbilov eyni zamanda "Talış Milli Akademiyası Xəbərləri"nin baş redaktorudur. Saytda talış folklor nümunələri, talışla bağlı nəşr olunmamış tarixi sənədlər və ilkin tədqiqatçıların əvvəllər nəşr olunmamış əsərləri dərc olunduğu qeyd edilib.

**Keçmiş diplomatın həbs müddəti artırılıb**

Noyabrın 19-da Nizami Rayon Məhkəməsi keçmiş diplomat Emin İbrahimovun ilkin həbs müddətini daha 2 ay uzadıb[9].

Müdafiə tərəfi məhkəmənin qərarını əsassız hesab edir. Vəkilin sözlərinə görə, İbrahimovun barəsində istintaq hərəkətləri aparılmayıb. Keçmiş diplomatın guya bıçaqladığı iddia edilən şəxslə üzləşmə olmayıb.

Məhkəmə zamanı İbrahimov bildirib ki, hüquq sistemindən ədalət gözləmir, çünki ekspertiza onun heç vaxt görmədiyi bıçaqda ona aid barmaq izlərini "aşkarlayıb".

Müdafiə tərəfi İbrahimovun həbs müddətinin uzadılması barədə qərardan apellyasiya şikayəti verəcək.

Emin İbrahimov iyulun 22-də saxlanılıb. O, Azərbaycan Cinayət Məcəlləsinin 126.2.4 (xuliqanlıq niyyətilə sağlamlığa qəsdən ağır ziyan vurmaq) və 221-ci (xuliqanlıq) maddələrilə ittiham olunur. Bu maddələr üzrə onu 11 ilə qədər həbs təhlükəsi gözləyir.

İyulun 24-də məhkəmə onu 4 ay müddətinə həbs edib. İbrahimov etiraz əlaməti olaraq aclıq elan edib. O əmindir ki, həbsin əsl səbəbi hakimiyyətin tənqid edilməsidir.

Emin İbrahimov əvvəllər Azərbaycan Xarici İşlər Nazirliyi sistemində çalışıb. 2012-2016-cı illərdə Azərbaycanın ABŞ-dakı səfirliyində ikinci katib, 2016-2020-ci illərdə Uruqvayda Azərbaycanın müvəqqəti işlər vəkili olub. Daha sonra hökumətin siyasətilə razılaşmadığı üçün diplomatik xidmətdən gedib.

Bundan sonra sosial şəbəkələrdə hakimiyyəti tənqid edib, daha çox anti-Rusiya çıxışları ilə yadda qalıb.

**Media eksperti ev dustaqlığına buraxılmayıb**

Noyabrın 27-də Xətai Rayon Məhkəməsi “Toplum TV”nin təsisçisi, media eksperti Ələsgər Məmmədlinin ev dustaqlığına buraxılması ilə bağlı **müraciətini təmin etməyib.** [10]

[9] https://turan.az/az/siyaset/kecmis-diplomat-emin-ibrahimovun-hebs-muddeti-daha-2-ay-uzadilib-787151

[10] https://turan.az/en/politics/court-denies-release-of-toplum-tv-founder-alaskar-mammadli-under-house-arrest-787575

Məhkəmə online formatda keçirilib.

Ələsgər Məmmədlinin qardaşı Nəsimi Məmmədli onunla telefon danışığından sonra bildirib ki, Ələsgər Məmmədli məhkəmədə deyib ki, səhhətində yaranmış problemləri müalicə ilə ortadan qaldırmaq mümkün deyil.

“Xüsusilə də qalxanabənzər vəzində böyüməkdə olan şişin təcili əməliyyatla götürülməsi vacibdir. Boğulma hissinə görə yuxu rejimi pozulub. Davamlı olaraq qan təzyiqi yüksəlir, kəskin baş ağrılarından əziyyət çəkir. Hətta təcridxanada müayinə olunarkən həkimlər cərrahi əməliyyatın vacibliyini tövsiyə edib. Amma təcridxanada cərrahi əməliyyat oluna bilməz”, Nəsimi Məmmədli qeyd edib.

Ələsgər bəy əlavə olaraq bildirib ki, onun ev dustaqlığına buraxılması istintaqın aparılmasına heç bir mane törətmir.

“İstintaqdan yayınmaq və ya ona mane olmaq kimi bir addım atmağı onun şəxsiyyətinə və fəaliyyətimə uyğun deyil”.

Martın 6-8-də “Tolum TV” və onun tərəfdaş təşkilatı Demokratik Təşəbbüslər İnstitutunun 9 əməkdaşı saxlanılıb. Onlar xarici valyuta qaçaqmalçılığında ittiham olunurlar. Yeddi nəfər barədə həbs qətimkan tədbiri seçilib, iki nəfər isə polisin nəzarətinə verilib.

Ələsgər Məmmədli də valyuta qaçaqmalçılığında ittiham olunur.

### İctimai fəala 3 il həbs cəzası verilib

Noyabrın 28-də Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz dövriyyəsində ittiham olunan ictimai fəal Zəka Mirağayevin işi üzrə proses başa çatıb. Məhkəmə **ictimai fəalı 3 il həbsə məhkum edib.**[11]

Fəal son sözündə bir daha ona qarşı irəli sürülən ittihamı rədd edib. Mirağayev deyib ki, saxlanıldıqdan sonra işgəncəyə məruz qalıb və fiziki təzyiq altında öz-özünə böhtan atıb. Mirağayevin sözlərinə görə, narkotiki onun cibinə qoyublar.

Mirağayev həmçinin deyib ki, məhkəmə obyektiv istintaq aparmayıb və hətta Bakının Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Bölməsinin onun orada olduğu vaxta aid videokamera görüntülərini istəməyib. Bu görüntülər izlənilsəydi, polis bölməsində onun başına gələnlər aydın olardı.

Mirağayev qeyd edib ki, polis orqanlarının qanunsuz hərəkətlərini tənqid etdiyinə görə təqib olunur. Prokuror Mirağayevin 7,5 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi. Müdafiə tərəfi isə fəala bəraət verilməsini istəyib.

Məhkəmə ittihamı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.3-cü (narkotik vasitələrin satış məqsədilə qanunsuz dövriyyəsi, külli miqdarda törədildikdə) maddəsindən 234.1-1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop

[11] https://www.amerikaninsesi.org/a/7879902.html

maddələri xeyli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma) maddəsinə tövsif edib və Mirağayevi 3 il azadlıqdan məhrumetmə cəzasına məhkum edib.

Mirağayev 11 oktyabr 2023-cü il tarixində saxlanılıb. Səbail Rayon Məhkəməsi onu 4 ay müddətinə həbs edib və o vaxtdan etibarən həbs müddəti dəfələrlə uzadılıb.

Mirağayevin yaxınları fəalın həbsini onun Daxili İşlər Nazirliyinin rəhbərliyini tənqid etdiyi açıq məktubu ilə əlaqələndirirlər.